bir xəyal qur...

Kitabın sahibi

Oxu tarixi

♡ ♡ ♡ ♡ ♡

Ürək ver

# XOŞBƏXTLİK ÇİÇƏYİ

(nağıllar)

YAQUB ƏŞ-ŞƏRUNİ

Ərəb dilindən tərcümə:

Prof. Əhməd Sami Elaydi

Simurq

| | |
|---|---|
| Baş redaktor: | Amin |
| Redaktor: | Toğrul MUSAYEV |
| Korrektor: | Turac ELDARQIZI |
| İllüstrator: | Könül MUHAMMED (SALAYEVA) |
| Tərtibatçı: | Zülfi XƏLİLOV |
| Cildin dizayneri: | Könül MUHAMMED (SALAYEVA) |

**يعقوب الشاروني**
**زهرة السعادة** (قصص)

**Yaqub əş-Şəruni**
**XOŞBƏXTLİK ÇİÇƏYİ** *(nağıllar)*

Bakı, "Simurq" Nəşriyyatı – 2024, 88 səh.

**© Yaqub əş-Şəruni / 2015**
**© Parlaq İmzalar MMC / 2024**
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Simurq Nəşriyyatı | 22

ISBN 9952547849

SİMURQ – Parlaq İmzalar MMC-yə məxsus markadır.

www.parlaqimzalar.az
simurq@parlaqimzalar.az
facebook.com/simurqkitab
0559697259 / 0559897259

Mətbəə: "AVE PRİNT" MMC
2024

# Mündəricat

Xoşbəxtlik çiçəyi.........................9
Daş və bəxt.........................23
Hökmdar və boyunbağı.........................33
Milyonları xilas edən adam.........................43
Musiqinin sehrbazı.........................51
Pələngin quyruğu.........................61
Sehrli kəpənək.........................71

# XOŞBƏXTLİK ÇİÇƏYİ

Sultanın qızını – şahzadəni aparan böyük bir karvan yavaş-yavaş irəliləyirdi. Şahzadə Ulduz gözəl bir kəcavənin içində oturmuşdu. Onun üzündən açıq-aşkar kədər sezilirdi. İnsanlar karvanın ətrafına toplaşmış, şahzadəni alqışlayır, sevinclə salamlayırdılar.

Birdən bir səs ucaldı:

– Şahzadənin üzünə təbəssüm nə vaxt qayıdacaq?

Bu səs yaraşıqlı, mehriban və ağıllı bir gəncin səsi idi. Onun adı Surur idi. O, şahzadənin üzünə diqqətlə baxdı və öz-özünə pıçıldadı: "Nə qədər kədərlidir... Halbuki çox gözəldir. Niyə bu qədər qəmli görünür? Mən onu sevindirmək üçün nəsə etməliyəm... Ancaq mən kiməm ki?! Bu mənim

üçün qeyri-mümkündür, ən yaxşısı budur ki, öz işimlə məşğul olum”.

Ertəsi gün Surur yenidən işinə qayıtdı. İşə girişdi ki, gözəl şahzadəni və onun kədərli üzünü unutsun.

Surur bir hambal idi. O, su və ya buğda kisələri daşıyırdı. Bütün günü işləyir, bəzən də uzun səfərlərə çıxırdı. Amma kədərli şahzadənin üzü heç cür yadından çıxmırdı.

Nəhayət, Surur müdrik Səburu ziyarət etməyə qərar verdi və şahzadə haqqında düşündüyü hər şeyi ona danışdı.

Müdrik dedi:

– Sən xoşbəxtlik gətirən mavi çiçəyi tapmalısan.

Surur təəccüblə soruşdu:

– Mavi çiçək? Mən onu harda tapa bilərəm?

Müdrik gülümsəyib dedi:

– O çiçək bağlarda, əkin sahələrində, meşələrdə bitmir. Bu kiçik taxta qutunu götür. Başqalarını özündən üstün bilən bir insanla qarşılaşsan, həmin qutunun içində xoşbəxtliyin mavi çiçəyi bitəcək.

Surur dedi:

– Sizcə, kədərli şahzadəyə bu mavi çiçəyi versəm, sevinəcək? Mən əminəm ki, onu çox rahat tapacam.

Müdrik Səbur isə belə cavab verdi:

– Amma mənim fikrimcə, onu çox böyük çətinliklə əldə edəcəksən. Çünki insanların çoxu özünə vurğundu.

Surur böyük inamla dedi:

– Mənim çoxlu yaxşı və səxavətli dostlarım var, buna görə də bu mavi çiçəyi tezliklə əldə edəcəm.

Müdrik dedi:

– Mən də arzu edirəm.

Müdrikdən ayrılarkən Surur dedi:

– Təşəkkür edirəm, ey müdrik. Mən indi Muxtar adlı əziz bir dostumun yanına gedəcəm. O, dəfələrlə mənə deyib ki, ehtiyacım olanda mənə kömək edə bilər. Onunla görüşdükdən sonra mavi çiçəyin ortaya çıxması çox asan olacaq.

* * *

Surur dostu Muxtarın evinə tərəf yollandı və həyəcanlı halda ona dedi:

– Dünən başıma böyük bir müsibət gəldi! Evim yandı, hər şeyim məhv oldu. Sənin köməyinə eh-

tiyacım var. Yeni bir ev tikənə qədər məni və ailəmi öz evində qonaq edə bilərsənmi?

Muxtar bir az düşünüb dedi:

– Əziz Surur, çox istərdim ki, səni və ailəni qonaq edim. Amma bu gün əmim bizə qonaq gələcək.

Surur dedi:

– Amma sənin evin çox böyükdü.

Muxtar cavab verdi:

– Əmim üç xidmətçisi ilə gələcək və özü ilə çoxlu çamadan gətirəcək.

Surur dedi:

– Bilirəm ki, səni narahat edirəm, amma bizə istənilən bir otaqda balaca bir yer versən də kifayətdi.

Muxtar bir az sıxılaraq dedi:

– Düzünü desəm, mən tezliklə evlənəcəm və uşaqlarım olacaq. Ona görə də ev mənim üçün çox dar olacaq.

Surur məyus halda dedi:

– Anladım, anladım... təşəkkür edirəm.

Surur Muxtarın evindən suyu süzülə-süzülə çıxdı. O düşündü: "Surur Muxtarın evindən kədərli halda ayrıldı... Mavi çiçək taxta qutuda bit-

məyəcəkdi, çünki gördü ki, dostu başqalarını düşünməkdən daha çox özünü düşünür".

* * *

Surur bir yerdən başqa yerə səfər etməyə başladı, dostlarının qapılarını bir-bir döyürdü ki, bəlkə, xoşbəxtlik çiçəyini əldə edə bilsin. Lakin onların heç birində axtardığını tapa bilmədi.

Surur ümidsizliyə qapılmadı və yoluna davam etdi. Ancaq qarşılaşdığı hər kəs ona kömək etməyə mane olan bəhanələr gətirirdi.

Bir gün meşədə ağacların arası ilə gedərkən Surur öz-özünə dedi: "Görünür, artıq dünyada heç kim başqalarına kömək etmir və onlar üçün fədakarlıq göstərmir".

* * *

Bir axşam Sururu yorğunluq və ümidsizlik bürümüşdü. Meşədə bir odunçunun evinə çatanda ona dedi:

– Ey yaxşı insan, bu axşam məni qonaq edə bilərsən? Mən bütün günü yol getmişəm, çox yorğun, həm də acam.

Odunçu bir anlığa tərəddüd etdi, sonra isə səsini qaldıraraq dedi:

– Xoş gəlmisən, buyur.